**İsa HƏBİBBƏYLİ**

*AMEA-nın vitse-prezidenti*
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik
isa.habibbeyli@science.az

# ÇİNGİZ AYTMATOV: DÜNYA ƏDƏBİYYATININ ƏBƏDİYAŞAR FENOMENİ

Dünya şöhrəti qazanmış görkəmli yazıçı Çingiz Aytmatov XX əsr bədii düşüncəsinin və ümumiyyətlə, böyük ədəbiyyatın ən qüdrətli ustadlarından biri kimi qəbul olunur. Çingiz Aytmatov dünya ədəbiyyatında yeni nəsrin əbədiyaşar yaradıcıları sırasına daxil olmuşdur. Bu böyük sənətkarın adı Ernest Heminquey, Markes, Folkner, Soljenitsın, Elis Munro və onlarca başqaları kimi dünyada əsərləri ən çox oxunan yazıçıların sırasında çəkilir. XX əsrin ikinci yarısında böyük ədəbiyyatda yenitipli insan obrazının formalaşdırılmasında və təşəkkülündə Çingiz Aytmatovun əvəzsiz xidmətləri vardır.

– 0 –

Görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun zəngin və mənalı tərcümeyi-halı insanlıq və yeni nəsillər üçün mükəmməl örnəkdir.

1928, 12 dekabr – Qırğızıstan, Talas vilayətinin Şəkər kəndində anadan olmuşdur.

1946-1948 – Cambul Zoobaytarlıq Texnikumunda oxumuş, oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1948-1953 – Bişkekdə Skrabin adına Kənd Təsərrüfatı İnstitutunda təhsil almış və fərqlənmə diplomu ilə başa vurmuşdur.

1951, 11 noyabr – "Leninçil jaş" ("Gənc leninçi") qəzetində çıxan "Rusca-qırğızca sözlük haqqında sözüm" adlı ilk yazısı ilə ədəbi mühitə qədəm qoymuşdur.

1952 – "Qəzetçi Dzüyo" adlı ilk hekayəni yazmışdır. Bunun ardınca həmin il "Aşım", "Mı idyom dalşe" hekayələri işıq üzü görmüşdür.

1953-1956 – Çon-Arık sovxozunda zootexnik işləmişdir.

1956 – SSRİ Yazıçılar İttifaqına üzv qəbul olunmuşdur.

1956-1958 – Moskvada Maksim Qorki adına Ali Ədəbiyyat kursunu oxumuşdur.

1957 – "Üz-üzə" adlı ilk povesti "Alatoo" jurnalında dərc olunmuşdur.

1958 – "Cəmilə" ("Novıy mir", Moskva), "Üz-üzə", ("Oktyabr" Moskva) povestləri və "Rəqiblər" hekayəsi ("Drujba narodov", Moskva) çap olunmuşdur.

1960-1965 – "Pravda" qəzetinin Qırğızıstan üzrə xüsusi müxbiri vəzifəsində çalışmışdır.

1958-1960 – "Literaturnıy Kirqizstan" jurnalının baş redaktoru işləmişdir.

1961 – "Qırmızı yaylıqlı qovağım mənim" ("Drujba narodov"), "Köşək gözü" ("Novıy mir") povestləri çapdan çıxmışdır.

1963 – "İlk müəllim", "Ana tarla" povestləri çap olunmuş, "Dağların və səhraların povestləri"nə görə Lenin Mükafatı Laureatı adına layiq görülmüşdür.

İlk dəfə Azərbaycana səfər etmişdir. (7iyul)

1960-1986 – Qırğızıstan Kinematoqrafçılar Birliyinin sədri vəzifəsində işləmişdir.

1966 – "Əlvida, Gülsarı" povesti çapdan çıxmışdır.

1967 – Cəlil Məmmədquluzadənin 100 illik yubileyində Moskvada (27 may) və Bakıda (iyun) çıxışlar etmişdir.

1968 – "Əlvida, Gülsarı" povesti SSRİ Dövlət Mükafatına layiq görülmüşdür. "Qırğızıstanın xalq yazıçısı" adı verilmişdir.

1970 – "Ağ gəmi" povesti çapdan çıxmışdır. Ədəbiyyat üzrə Qırğızıstan Dövlət Mükafatı almışdır.

1973 – "Fudziyama" dramı Moskvada səhnələşdirilmişdir.

1974 – Qırğızıstan Elmlər Akademiyasının akademiki seçilmişdir.

1977 – "Ağ gəmi" filminə görə SSRİ Dövlət Mükafatı almışdır. "Dəniz kənarıyla qaçan Alabaş" povesti çapdan çıxmışdır.

1978 – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

1980 – "Gün var əsrə bərabər" romanı çap olunmuşdur. İtaliyanın "Etruriya" ədəbiyyat mükafatını almışdır. Avropa Elm və İncəsənət Akademiyasının akademiki seçilmişdir.

1983 – "Gün var əsrə bərabər" romanı SSRİ Dövlət Mükafatına layiq görülmüşdür.





1985 – Beynəlxalq Cəvahirlər Nehru mükafatı almışdır.

Bəxtiyar Vahabzadənin 60 illik yubileyi münasibətilə Bakıya səfər etmişdir

1986 – "Qiyamət" ("Plaxa") romanı çapdan çıxmışdır.

1986-1995 – SSRİ prezidentinin və Sov.İKP MK Baş katibinin müşaviri olmuşdur.

1986-1990 – Qırğızıstan Yazıçılar Birliyinin sədri seçilmişdir.

1988-1990 – "İnostrannaya literatura" jurnalının baş redaktoru olmuşdur.

1990-1993 – SSRİ-nin Lüksemburqda səfiri olmuşdur.

1993 – "Ruhun böyüklüyü barədə Oda" (Dayseku İkeda ilə dialoq kitab) çap edilmişdir.

1993 – Avropa ədəbiyyat mükafatı almışdır.

1994 – Qırğızıstanın Belçikada, Niderlandda və Lüksemburqda böyük elçisi, Avropa Birliyində, "UNESKO"-da Qırğızıstanın səlahiyyətli nümayəndəsi olmuşdur.

1994 – Kaliforniya Beynəlxalq Elm, Təhsil və İncəsənət Akademiyasının akademiki seçilmişdir. (ABŞ)

1995 – Viktor Hüqo adına Beynəlxalq mükafata layiq görülmüşdür. (Paris)

Mərkəzi Asiya xalqları Mədəniyyət Assambleyasının prezidenti seçilmişdir.

1996 – Türkiyənin Ali Ədəbiyyat mükafatına layiq görülmüşdür. "Kassandra damğası" romanını yazmışdır.

1997 – Qırğızıstan Respublikasının qəhrəmanı adına layiq görülmüşdür.

1998 – Dünya elmi, ədəbiyyatı və incəsənətində görkəmli xidmətlərinə görə Albert Eynşteyn adına böyük Qızıl Medala layiq görülmüşdür.

1998-2008 – Avropa ölkələrində səfirlik missiyasını davam etdirmişdir.

1999 – Qırğızıstanın I dərəcəli Manas ordeninə layiq görülmüşdür.

2006 – "Əbədi gəlin" və ya "Dağlar çökəndə" romanı çap olunmuşdur.

2007 – Türkdilli ölkələrin mədəniyyətinin inkişafına görə Türkiyənin yüksək Dövlət mükafatına layiq görülmüşdür.

2008, 26 fevral – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onu "Dostluq" ordeni ilə təltif etmişdir.

2008 – 80 illiyi münasibəti ilə Qırğızıstan Prezidentinin fərmanı ilə Qırğızıstanda Çingiz Aytmatov ili elan olunmuşdur.

2008, 10 iyun – Almaniyanın Nürnberq xəstəxanasında vəfat etmişdir.

– 0 –

Çingiz Aytmatovun tərcümeyi-halının böyük bir dövrü sovet hakmiyyəti illərinə təsadüf edir. Sovet rejiminin sərt ideoloji tələblərinə baxmayaraq, Çingiz Aytmatov sadəcə, əməli işi ilə deyil, mənəvi aləminin bütün zənginlikləri, qəribəlikləri ilə yeni olan sadə insanı ciddi bir ədəbiyyat hadisəsi səviyyəsində təbii şəkildə təqdim etmək vəzifəsini bacarıqla həyata keçirmişdir. Sovet dövründə Çingiz Aytmatovun milli mövqeyini, yeni insanı və bəşəri problemləri böyük ədəbiyyat miqyasında ifadə etməklə yanaşı, həm də əsərləri vasitəsilə nəşr etdirib dünyada yaya bilməsi sosializm dövrünün möcüzələrindən biri idi. Bəzi sovet yazıçıları kimi, Çingiz Aytmatov da əsərlərində əks etdirdiyi problemləri bir qədər gərginləşdirərək Nobel mükafatı alıb ölkəni tərk etmək imkanını gerçəkləşdirə bilərdi. Lakin Çingiz Aytmatov sosializm cəmiyyətində yaşayıb, həm də sovet gerçəkliyinin sədlərini aşa bilən böyük ədəbiyyat yaratmağın təkrarsız nümunəsini göstərmişdir. Hətta bəzi Nobel mukafatı laureatları ilə müqayisədə Çingiz Aytmatovun əsərlərində dərin həyati proseslər siyasi motivlərdən daha çoxdur.

Çingiz Aytmatov Nobel mükafatı səviyyəsində yazıb-yaradan və Sovetlər İttifaqında qalıb yaşamağı bacarmış qüdrətli dünya yazıçısı idi. Fikrimcə, bu mənada Nobel mükafatı almamış Çingiz Aytmatovun xidmətləri bu böyük beynəlxalq mükafatın laureatlarından heç də az deyil. Dünyanın digər görkəmli yazıçılarının yaradıcılığına və fəaliyyətinə kölgə salmadan, əksinə, onlardan hər birinin əsərlərinə obyektiv şəkildə yüksək qiymət verməklə, həm də bu qənaətdəyəm ki, Çingiz Aytmatovun yaradıcılığı ilə dünya ədəbiyyatının yeni standartı meydana çıxmışdır. XX əsrin əvvəllərində ədəbiyyatda meydana çıxmış kiçik insanı sonralar hər yazıçı öz ölkəsində, Çingiz Aytmatov isə dünya ədəbiyyatı miqyasında böyük ədəbiyyatın əsas obrazına çevirə bilmişdir. Bəlkə də nə vaxtsa, dünyanın bu tipli ədəbiyyatı üçün də yeni bir beynəlxalq mükafat – Çingiz Aytmatov mükafatı da təsis ediləcəkdir.





Çingiz Aytmatovun əsərlərində və baxışlarında milliliklə bəşərilik vəhdət halındadır. Milliliklə bəşəriliyin dahiyanə harmoniyası Çingiz Aytmatov sənətinin özünəməxsusluğunu müəyyənləşdirir. Millilik və bəşəriliyin dialektik əlaqəsi və üzvi sintezi Çingiz Aytmatovun ümumdünya tarazlığı modelinin əsas dayaqlarını təşkil edir. Çingiz Aytmatov ədəbiyyatda insanı milli varlığı və bəşəri dəyəri ilə vəhdətdə təqdim etməyi zəruri saymış və yaradıcılığını bu harmoniya üzərində tarazlamışdır. Çingiz Aytmatovun yaradıcılığında millilik amili, ümumtürk ruhundan, qırğız etnik düşüncəsindən doğan və qlobal dünyanın hadisəsi səviyyəsində ümumiləşdirilən yüksək və dərin insani keyfiyyətlər şəklində təzahür edir. Beləliklə, Çingiz Aytmatovun yaradıcılığında ayrılıqda götürülmüş bir obrazın və ya xalqın timsalında bütövlükdə bəşər övladı üçün əhəmiyyətli olan problemlərin ümumiləşdirilməsi kimi məsuliyyətli və şərəfli vəzifə özünün orijinal bədii həllini tapmışdır. Dünya ədəbiyyatında milli ilə bəşərinin vəhdətini əks etdirmək yeni hadisə olmasa da, bu sahədə Çingiz Aytmatov öz modelini yaratmışdır. Çingiz Aytmatovun yaradıcılığında milli və bəşəri anlayışları geniş mənada insanlıq düşüncəsi birləşdirir. Hətta Çingiz Aytmatov əsərlərində həm özünü, millətini və dünyanı qavramış yazıçı mənəviyyatını da ifadə etmişdir. Tanınmış türk alimi, professor Ramazan Qorxmaz doğru olaraq yazmışdır ki, "Çingiz Aytmatov Simurq quşu kimi həm bütün insanlarda özünü, həm də özündə bütövlükdə insanlığı duymağa çalışır". Beləliklə, zəngin və dərin yazıçı dünyası milli düşüncə ilə bəşəri qavrayışı özündə cəmləşdirir. Bu baxımdan Çingiz Aytmatov özü də geniş mənada əsərlərindəki milli və bəşəri düşüncələrin rəmzinə çevrilir.

Bundan başqa, Çingiz Aytmatovun ümumdünya tarazlığı modelinin daha bir özünəməxsusluğu da bu dahi sənətkarın dünyadakı problemləri qan tökmək, müharibələrə təkan vermək yolu ilə deyil, mədəniyyəti, ədəbiyyatı ön mövqeyə çəkmək üsulu ilə həll etməyə hesablanmış dahiyanə çağırışları idi. Çingiz Aytmatovun 20 il əvvəl meydana çıxmış "Müharibə kultunun yerinə mütləq mədəniyyət gəlməlidir", – çağırışı bu gün dünənkindən də aktual səslənir. Millilik

və bəşəriliyin Çingiz Aytmatov modeli insanlığa ədalət, sülh, birlik vəd edir.

Göründüyü kimi, Çingiz Aytmatov Asiya ağırlıqlı və Avropa meyilli yazıçıdır. Böyük sənətkarın yaradıcılığında milli varlığın ifadəsi ilə bəşəri meyarların vəhdəti Asiya və Avropa düşüncə miqyasları hüdudlarında öz həllini tapır. Qırğız həyatının timsalında təqdim olunan Asiya gerçəkliyi və Avropa düşüncəsi əsasında ədəbi-bədii yanaşmalar onun yaradıcılığında üzvi sintez halında ifadə olunur. Çingiz Aytmatov öz əsərlərində milli dəyərlərlə bəşəri düşüncənin ideal balansını tapmışdır. O, bütün kökləri, nəbzi, qayəsi etibarilə ümumtürk təfəkküründən, qırğız ruhundan doğan dahiyanə bədii əsərlərində əsas ideyanı ifadə edərkən nümayiş etdirdiyi cəsarət, ümid bəslədiyi gələcək mənasında həm doğma xalqına, həm də ümumiyyətlə, insanlığa şərəflə xidmət etmişdir.

Çingiz Aytmatovun Asiya düşüncəsinin ana xətləri mənsub olduğu qırğız xalqının taleyinin və mənəvi dünyasının əsasında formalaşdırdığı dərin həyat fəlsəfəsində və ümumiləşdirmələrində əks-sədа tapır. O, qırğız ellərinin və çöllərinin ruhunu bütün reallıqları və özünəməxsusluqları ilə böyük ədəbiyyatda canlandırmaqla, bütövlükdə Orta Asiya coğrafiyasının ümumiləşmiş obrazını yaratmışdır. Dünya xalqları Qırğızıstanı və Orta Asiyanı Çingiz Aytmatovun əsərləri vasitəsilə xəritədəkindən də yaxından tanımaq imkanı əldə etmişlər. Bu mənada ümumtürk təfəkkürünün möhtəşəm daşıyıcısı olan Çingiz Aytmatov ilk növbədə qırğız ruhunun böyük ədəbiyyat heykəlidir. O, mənsub olduğu xalqı və ölkəni ana torpaq və insan haqqında bəşəri düşüncə səviyyəsində təqdim etmək istedadı ilə dünya ədəbiyyatı məkanına daxil olmuşdur.

Çingiz Aytmatov "Manas" dastanından doğulan, əsərləri ilə yeni tipli Manas fəlsəfəsi və müasir ədəbiyyat təfəkkürü yaradan böyük mütəfəkkirdir. Obrazlı şəkildə desək, insanlığa xidmət edən ölməz əsərləri ilə birlikdə Çingiz Aytmatov dünyanın ən uca zirvələrindən biri olan Tyan-Şan dağlarında bədii sözün qüdrətinə, böyük ədəbiyyata ucaldılan möhtəşəm abidədir. Onun yüksək və təkrarsız istedadının məhsulu olan bədii əsərləri qitələri, ölkələri, xalqları yaxınlaşdıran və doğmalaşdıran böyük sənət körpüləridir. Çingiz Aytmatovun "Əsrə bərabər gün" əsəri ideyası və bədii-sənətkarlıq xüsusiyyətləri etibarilə XX əsrin ən möhtəşəm epopeyasıdır. "Əsrə bərabər gün" romanının qəhrəmanı Boranlı Yedigey dünya ədəbiyyatında bənzəri olmayan, bütöv bir epoxanı, nəhayət, mənsub olduğu xalqın və məmləkətin taleyini ümumiləşmiş şəkildə əks etdirən nadir bədii obrazdır. Nayman Ana milli kimliklərin unutdurulması proseslərinin yaşandığı dünyada yenidən oyanıb özünə "Mən kiməm" sualını verib, cavab axtaran insanlığın milli-mənəvi özünədərkinin tamam yeni bədii təcəssümüdür. "Əsrə bərabər gün" romanı dünya ədəbiyyatının son bir əsrlik dövrünün möhtəşəm yekunu, yenidən özünüdərkə qayıtmağa can atan müasir epoxanın ədəbiyyatının start nöqtəsidir.





Çingiz Aytmatovun düşüncəsində Avropa meyli onun əsərlərində siyasi və mənəvi əsarətin gərginliklərini, əzablarını, milli azadlığın çətin və əzablı yollarını böyük cəsarətlə ifadə etmək bacarığında öz əksini tapmışdır. O, milli-mənəvi özünüdərki hər bir xalqın, o cümlədən qırğız xalqının böyük borcu və amalı səviyyəsində təqdim etmişdir. Sovet imperiyasının sərt rejimi çərçivəsində bütövlükdə insan və ya konkret bir millət haqqında taleyüklü böyük idealları əks etdirmək Çingiz Aytmatovun qəhrəmanlığı idi.

Asiya gerçəkliyi haqqındakı böyük ədəbiyyata örnək olan, milli və bəşəri mövqenin sintezi əsasında yazılmış əsərləri ilə Çingiz Aytmatov geniş mənada Avropanı və ümumiyyətlə, dünyanı təəccübləndirməyi və düşündürməyi bacarmışdır. Çingiz Aytmatov postsovet dövrü ədəbi-ictimai fikrinin axırıncı böyük ədəbiyyat mogikanıdır.

Janrından asılı olmayaraq, Çingiz Aytmatovun bütün əsərlərində roman ağırlığı var. Çingiz Aytmatov dünyanı roman miqyasında qavrayan və ifadə edən qüdrətli yazıçıdır. Görkəmli sənətkarın həcminə görə povest kimi görünən əsərləri əhatə etdiyi problemlərə və maraqlı, keşməkeşli insan taleyini əks etdirməsinə görə, ciddi roman təəssüratları yarada bilir. "Cəmilə", "Əlvida, Gülsarı", "Ana tarla", "İlk müəllim" kimi kiçik povestlərin daşıdığı böyük ideya-mənəvi yük cild-cild romanlarla müqayisədə ağır gələr. Bu əsərlərlə dünya ədəbiyyatı yeni süjetlərlə və obrazlarla təzələnmiş və zənginləşmişdir. XX əsrin əllinci illərində, otuz yaşlı Çingiz Aytmatovun yaratdığı Cəmilə obrazı təkcə sovet ədəbiyyatında deyil, bütövlükdə dünya ədəbiyyatında yeni hadisə səviyyəsində qarşılanmışdır. Təsadüfi de-

yildir ki, məşhur fransız yazıçısı Lui Araqon "Cəmilə" povestini "dünyanın ən gözəl eşq hekayəsi" kimi dəyərləndirmişdir.

Qazax ədəbiyyatının klassiki Muxtar Auezovun "Literaturnaya qazeta"nın 23 oktyabr 1958-ci il tarixli nömrəsində çap etdirdiyi "Cəmilə" povesti haqqında təəssüratlarını əks etdirən "Yolun açıq olsun" adlı məqaləsi Çingiz Aytmatovun böyük ədəbiyyata təqdimatı kimi mühüm əhəmiyyət kəsb etmişdir. Məqalədə deyilirdi: "Cəmilə" Çingiz Aytmatovun ilk əsəri deyildir... Məncə "Cəmilə" ilə özünəməxsus parlaq istedadını nümayiş etdirən bu əsərində Aytmatovun təsvir etmək gücünün yüksək bir nöqtəyə çatdığı qəti şəkildə görünür... Doğrusu, Çingiz Aytmatovun qırğız ədəbiyyatına bir yenilik kimi daxil olan ən mühüm özünəməxsusluğu insanın duyğularını və münasibətlərini yad bir şəxs kimi deyil, onları tam mənası ilə anlayan bir gözlə, son dərəcə təbii bir şəkildə canlandırmasıdır" [3].

Qüdrətli nəsr ustadı Çingiz Aytmatovun "İlk müəllim" povestində qırğız məmləkətinin uzaq dərinliklərində çalışan sadə bir müəllimin dərin mənəviyyatı və böyük ümidləri istedadla ifadə olunmuşdur. "Ana tarla" qırğız kövşəninin sadə əkinçisini və bənzərsiz ətrini ədəbiyyata gətirmişdir. "Əlvida, Gülsarı" povestində atın qırğız həyatındakı rolu və insana sədaqəti fonunda xalqın keşməkeşli taleyi ümumiləşdirilmişdir. "Mən Tyan-Şanam" əsəri milli qürur və təmiz sevginin dastanıdır. "Dəniz kənarıyla qaçan alabaş" – milli və bəşəri düşüncənin vəhdətindən yaranmış tale romanıdır. "Əsrə bərabər gün" romanı sovet rejiminin gərginliklərini qırğız xalqının simasında, ümumiyyətlə, eyni taleyə malik xalqların keşməkeşli həyatını və dərin mənəvi aləmini bütün reallıqları ilə əks etdirən dünya ədəbiyyatının şedevrlərindən biridir. Boranlı Yedigey XX əsr dünya ədəbiyyatında yaranmış yeni tipli bədii obrazdır. Boranlı Yedigey bütün ruhu ilə əsl qırğız ruhunun daşıyıcısı olmaqla bərabər, həm də stalinizmin acı keşməkeşlərini yaşamış və siyasi-mənəvi əsarətdən xilas olmağa çalışan insanların ümumiləşmiş obrazıdır. Roman içində roman adlandırıla biləcək Nayman Ana hekayətində də yazıçının mənsub olduğu xalqla yanaşı, bənzər taleyə məhkum edilmiş digər xalqların da aqibəti təqdim olunmuşdur.

Çingiz Aytmatovun digər əsərləri və qəhrəmanları da dünyada yeni ədəbiyyatın bənzərsiz təzahürləri olaraq qəbul edilmişdir. Cəmilə, Daniyar, Sadıq, Tolunay, Aysel, Altınay, Baytemir, Toğulan,





Altın və başqaları Çingiz Aytmatovun nadir istedadından və dərin müşahidələrindən doğulan yenitipli obrazlardır. Çingiz Aytmatovun yaratdığı obrazlar sovet ədəbiyyatında model kimi qəbul edilmiş müsbət qəhrəman və mənfi obraz qəlibini aşıb keçən, bu ideoloji formatın fəlsəfəsini dağıdan hadisədir. Çingiz Aytmatovun ədəbiyyatda sovet adamını yox, sadəcə olaraq təbiiliyi və gərginliyi ilə insanı təsvir etmişdir. Tanrı dağlarının ətəklərində, yovşanlı çöllərdə yaşayıb-çalışan bu adi insanların taleyində bütövlükdə insanlığın taleyi və düşüncələri öz əksini tapmışdır.

– 0 –

Çingiz Aytmatov bütün yaradıcılığı boyu türk düşüncə tərzini, ruhunu, mənsub olduğu xalqın psixologiyasını, mənəvi aləmini və dünyaya yanaşma modelini orijinal bədii vasitələrlə təqdim edən bir yazıçı kimi fərqlənmişdir. Çingiz Aytmatovun yaradıcılığında sadə və keşməkeşli taleyə malik insanların timsalında ümumiyyətlə, bəşəriyyətə və onun qlobal problemlərinə yeni baxış tərzi dilindən, dinindən, yaşadığı məkandan, zamandan, dövlət quruluşundan asılı olmayaraq, İnsanın və Dünyanın problemlərinin sintezi və harmoniyası, orijinal düşüncələr milli və bəşəri yaradıcılığının əsas xüsusiyyətlərindən biri kimi qabarıq şəkildə görünür. Belə ki, onun qırğız ruhunun, ümumtürk təfəkkürünün, milli-mənəviyyatın təqdimatına həsr olunmuş hər bir əsərində bütünlükdə bəşəriyyəti narahat edən, insanın taleyinə, onun gələcəyinə ünvanlanmış böyük problemlər qaldırılır. Bu cəhətdən 1980-ci ildə yazılmış "Gün var əsrə bərabər" romanı Çingiz Aytmatovun yaradıcılığında xüsusi mərhələ kimi qəbul olunur. Bu, keçmiş sovet ədəbiyyatında Mixail Şoloxovun "Sakit Don", Aleksandr Soljinitsının "Qulaq-arxipelaq" əsərləri kimi geniş mənada dünya ədəbiyyatının istiqamətini dəyişdirən tam orijinal bir əsərdir.

Fikrimizcə, Çingiz Aytmatovun 1996-cı ildə yazdığı "Kassandra damğası" romanı böyük qırğız yazıçısının daşıdığı düşüncə yolunda, demək olar ki, ədəbiyyatda millilik və bəşərilik istiqamətində onun yeni kəşfi, həmin sahədə qaldırdığı əhəmiyyətli qlobal problemlərin dialektik inkişafında mühüm bir zirvədir.

Romanda təsvir edilən Kosmosda yaşayan bir ruhaninin – kosmik rahib Filofeyin yer üzünə göndərdiyi bir məktubun Amerikada – dünyanın ən qlobal ölkəsi və ən böyük gücü sayılan bir ölkədə dərc olunması nəinki həmin ölkənin vətəndaşlarını, az qala bütün dünyanı ayağa qaldırır. Təbiətin bir parçası olan, amma təbiət qanunlarına zidd gedən insan övladının dünyanı nə dərəcədə məhvərindən oynatdığı, təbiət qanunlarını hansı miqyasda tərsinə çevirərək işlətdiyi, dünyaya və özünə necə böyük ziyan verdiyi əsərin əsas mövzusunu təşkil edir. Yazıçı göstərir ki, bütün bu fəlakətlərin nəticəsi olaraq İnsan övladı nəhayət, özü-özünə qarşı – Həyata qarşı çıxır. Daha doğrusu, Filofeyin kəşf etməyi insan nəslinin davamçısı olan yeni doğulacaq körpələr – hələ embrion olduqları halda, yer üzünə doğulmaqdan imtina edirlər. Onlar hələ ana bətnində ikən öz gələcək talelərini gördükləri üçün yaşamamağı, ölümə getməyi seçirlər. Filofey yer üzünə göndərdiyi məktubda da ana bətnində olan embrionların bu dəhşətli seçimlərini hamilə qadınların alnında peyda olan qırmızı ləkə – şüa altında görünən Kassandra damğası vasitəsilə xəbər verdikləri bildirilir. Bütün dünyanı silkələyən bu xəbər, insanların küçələrə axınlarına, cəmiyyətdə böyük çaşqınlığın yaranmasına səbəb olur.

“Kassandra damğası” haqqında xəbəri duyanlardan və öz düşüncəsi etibarilə Filofeyin fikirlərini və kəşfini dəstəkləyənlərdən biri də futuroloq alim Robert Borkdur. Kataklizmin, fəlakətlərin insan övladının hər an başı üzərində olduğu, dünyanın daim dağılmaqla qarşı-qarşıya dayandığı futuroloq alim Robert Borkun düşüncələrində özünü göstərir. Daha doğrusu, Robert Bork beynəlxalq konfransda çıxış etmək üçün yola düşdüyü zaman okeanın üzərindən keçərkən, balinaların kütləvi şəkildə – sürü ilə intihara getdiyi bir mənzərəni seyr edir. Yuxu ilə gerçəklik arasında bir keçiddə müşahidə olunan balina sürüsünün birgə köçü mənzərənin təəssüratı altında olan alim geri qayıtdığı vaxt Filofeyin məktubu ilə əlaqədar xəbərinin təsiri ilə ölkənin silkələndiyini görür. Əslində onun alim kimi müşahidələri ilə Filofeyin kəşfi arasında maraqlı bir paralellik vardır. Çünki bəşəriyyətin gedişatını, faciəli sonluğunu, sürükləndiyi qlobal ekoloji problemlərin hansı fəlakətlərə yol aça biləcəyini hiss etdikləri üçün balinalar kütləvi şəkildə intihara yol aldıqları kimi, Filofeyin kəşf etdiyi hadisə – hələ ana bətnində ikən dünyadakı talelərini, sonluqlarını görə bilən, qlobal və fərdi problemlərin varlığını dərk edən embrionlar da eyni şəkildə yaşama etiraz edir, dünyaya gəlməkdən boyun qaçırırlar. Bu embrion pessimizminin səbəbi onların hələ ana bətnində ikən öz aqibətlərini görmələri, dünyada onları nə gözlədiklərini intiutiv olaraq hiss etmələridir. Bu məqamda hissetmə ilə bərabər, başqa bir vacib məqam – valideynlərin, ata-ananın törətdikləri əməllərə görə hələ dünyaya gəlməmiş döllərin belə taleyinə müəyyən təsirlərin olacağı fərziyyəsidir. Yazıçı təlqin etmək istəyir ki, həyatda baş vermiş heç bir əməl cavabsız qalmır: “Nəhayət ki, başa düşmək lazımdır: subyektin törətdiyi heç bir şər əməl fiziki olaraq onunla birlikdə bu dünyadan köçüb getmir. Onun bitən dövrü ilə yoxa çıxmır. Əksinə, genetika meşəsində toxum kimi öz yetişməsinin iks saatını gözləməyə başlayır”.

Bu isə o deməkdir ki, insan övladı nəsil-nəsil öz əməllərinə görə cavab verməlidir. Əks halda onun günahı övladının, nəvəsinin, nəticəsinin... boynunda yük olaraq qalacaqdır. Çingiz Aytmatovun insanın bəşəriyyət qarşısında cavabdehliyi mənasında irəli sürdüyü məsuliyyət duyğusu və mənəvi təmizlənmə zərurəti insanlıq haqqında bəşəri düşüncə səviyyəsində ümumiləşir.

Filofey kosmosda bu kəşfin və gerçəkliyin ifadəçisi, cəmiyyətə çatdırıcısıdırsa, Robert Bork da yer üzündə eyni problemi dərk edən və yol göstərərkən sağlam insan düşüncəni müdafiə edən bir alimdir.

Nəticə etibarilə yazıçı kosmik yanaşmanın yoxu obyektiv reallıqlardan çıxış etməyin zəruriliyinə işıqlaşmışdır.

“Kassandra damğası” romanı yalnız bu problemi deyil, eyni zamanda da keçmiş SSRİ-də yenidənqurma dövrünü, kütləvi silahlandırmaya qarşı hərəkatı, bu işə böyük insan qüvvələrinin cəlb edildiyini diqqət mərkəzinə çəkir. Görkəmli yazıçı əgər silahsızlaşdırma prosesi başlayarsa, hansı sosial bir partlayışın baş verə biləcəyini, nə qədər adamın işsiz qalacağını və sairəni də aktual bir problem olaraq qaldırır. Əsərdə başqa bir qatda torpağa dəfn edilmədiyi üçün Qırmızı Meydanda ruhları dolaşan keçmiş sovet liderlərinin - Leninin və Stalinin xəyalatları arasında gedən söhbətlər və gecələr səyahətə çıxan bayquşun bütün bu hadisələrin şahidinə çevrilməsi, hətta müəyyən məqamda buna dözməyərək, hönkürüb quruldaya-qurulda-

ya ağlaması və s. hadisələrin təsviri zaman və müasirlik məsələlərinə gur işıq salır.

Romanın ən maraqlı cəhətlərindən biri dünyanın iki super gücü – SSRİ ilə Amerika arasında hadisələrin paylaşılmasıdır. Bundan başqa, yazıçı romanda embrionların dünyaya gəlməkdən imtina etməsi xəbərini kosmosdan göndərilsə də, Amerikada çap olmasını göstərməsi və bu problemə dair kəşfi keçmiş bir rus bioloq alimina aid etməsilə, supergüclərin münaqişələrinin insanlığın taleyindəki faciəli rolunu diqqətə çəkmişdir. Amma həmin rus alimi məktubu SSRİ məkanında deyil – Amerikada dərc olunan bir qəzetdə çap olunmaq üçün əvvəlcə Roma papasına, dolayısı iləsə Amerika vətəndaşlarına ünvanlayır. Bununla da əsərdə iki dünya – böyük supergüc dövlətlər qarşı-qarşıya gətirilir.

Çingiz Aytmatov embrionların doğulmaq istəməməsi faktına cavab olaraq, çıxış yolu kimi ilk baxışdan ortaya qoyulan abort əməliyyatlarına da "yox "deyir. Nəticə olaraq onun irəli sürdüyü variant təfəkkürün, düşüncə tərzinin, həyata, insana və təbiətə münasibətin dəyişdirilməsi zərurətidir.

Görkəmli yazıçı Çingiz Aytmatovun "Kassandra damğası" romanında insanın öz əməllərinə, hərəkətlərinə görə bir gün mütləq cavab verməli olduğu ideyası da səslənir. Ədib göstərir ki, bu ideyanın nəticəsidir ki, bir zamanlar az qala dünyanın yarısına hökmranlıq edən, insanları öz ideoloji baxışları əsasında faciələrə sürükləyən rəhbərlərin də ruhları sakitləşmək, öz dünyalarına çəkilmək iqtidarında deyildir. Çingiz Aytmatovun tədqiqatında onlar cəza kimi iki dünya arasındakı daha dəhşətli zülmətdə dolaşmaqda və əzab çəkməkdədirlər.

Romanın qaldırdığı əsas problemlərdən biri gerçək ata-anası bəlli olmayan insanların süni yolla yaradılması məsələsinə münasibətdir. Yazıçı göstərir ki, real valideynləri, kökü, şəcərəsi olmayan insanların bəşəriyyətə necə ağır zərbə vuracağı ilk baxışda təsəvvür edilmir. Əslində isə kimliyi bəlli olmayan süni insan yaradılması problemi, genetikanın itirilməsi, soykökdən qopmuş insanın cəmiyyəti və insanlığı heç bir mənəvi məsuliyyət daşımayan canlı robotların taleyinə ümid etmək deməkdir. Bu, Çingiz Aytmatovun ilk dəfə «Əsrə bərabər gün» romanında böyük həyəcanla nəzərə çarpdırdığı «manqurtlaşdırma» faciəsinə yeni baxışın ifadəsidir. Görkəmli yazıçı «Əsrə bərabər gün» romanında ayrı-ayrı xalqların əridilib yox edilməsi kimi baxdığı manqurtlaşmanın daha fərqli və yeni təzahür forması olan süni insan yaradılması işinə qlobal mənada bəşəriyyət üçün mənəvi tarazlığın pozulması, insanlığın qarşısında cavabdehlik düşüncəsinin itirilməsi mənasında daha kəskin münasibət bəsləmişdir. Çünki soykökdən, qan yaddaşından, genetikadan məhrum olan, milli iftixar duyğusundan məhrum edilmiş insan cəmiyyət üçün daha dəhşətli bir fəlakətə çevrilə bilər.



Müqayisəli ədəbiyyatşünaslıq

Kassandra damğasını kəşf edən Filofeyin – Andrey Krıltsovun özünün atasız, anasız, atılmış bir uşaq olması da təsadüfi deyildir. Kökünün olmamasına baxmayaraq, dünyaya hökmranlıq istəyində olan bu bioloq alim sonradan əsl həqiqəti dərk etdiyi üçün kosmik rahibə çevrilir. Romanın əvvəlində o, "hansı uşağın hansı valideyndən, necə dünyaya gələcəyini belə qərar vermək iqtidarında olan alimdir". Qadın-inkubatora olan münasibətdə "Sənin yerinə inkubator olmağı arzu edən onlarla qadın tapa bilərik", - deməsi ilə Filofeyin dünyaya insan gətirilməsi prosesinə necə mexaniki bir yanaşma bəslədiyini göstərir.Yazıçının obrazların dili ilə "dəhşət də bundadır" qənaətini ifadə etməsi faciənin böyüklüyünü və həll olunması üçün kütləvi şüur dəyişmə prosesinə gətirib çıxaracağını meydana çıxarır. Sonradan məhv etdiyi qadının qarşısında günahını yumaq üçün və öz yanlışlığını dərindən başa düşdüyündən, mühitdən və cəmiyyətdən geri çəkilərək Krıltsov-Filofey kosmik monaxa kimi həyatını davam etdirir.

Krıltsovun romanda şəxsi faciəsi də təsvir edilir. Onun həyatı da sevdiyi, amma ondan uşaq istəmədiyi üçün abort etdirdiyi Runanın həyatı kimi faciəli sonluqla bitir. Rahib Filofeyin başına gələnləri əks etdirməklə, Çingiz Aytmatov bəşəriyyətə xəbərdarlıq edir: Təbiətin qanunlarını pozmayın, o qanunlardan kənara çıxmayın, onu məhv etməyin! Əks halda, özünüz məhv olacaqsınız!

Bu roman dünyanın bir sıra qlobal və aktual problemlərini qaldırmaqla kimi səslənir. İnsan övladını düşünməyə, həm də çox dərindən düşünməyə çağırır. Eyni zamanda, "Kassandra damğası" qüdrətli söz ustadı Çingiz Aytmatovun bəşəriyyətə ünvanladığı böyük bir xəbərdarlıq.

Çingiz Aytmatov bəşəriyyət qarşısında mənəvi məsuliyyət daşıyan planetar miqyaslı görkəmli yazıçıdır. Sovet hakimiyyəti illə-

rində mənsub olduğu qırğız xalqının keşməkeşli taleyinin timsalında SSRİ-də yaşayan xalqların milli-mənəvi varlığını qorumaq, xilas etmək və inkişaf etdirmək uğrunda mübarizə aparan vətəndaş yazıçı müstəqillik dövründə bəşəriyyət qarşısında cavabdehlik borcu olan qüdrətli bir sənətkar kimi çıxış edir.

«Kassandra damğası» romanı – Çingiz Aytmatovun dünya ədəbiyyatının görkəmli yaradıcıları sırasında özünəməxsus sanballı yerini müəyyən edən mükəmməl və ciddi sənət damğasıdır.

«Kassandra damğası» – Çingiz Aytmatovun həyatı və yaradıcılığının müstəqillik dövrünə aid olan yeni mərhələsinin böyük sənət hadisəsidir.

«Kassandra damğası» – XXI əsr dünya ədəbiyyatının nadir şedevrlərindən biridir.

Qüdrətli bir sənətkar olaraq Çingiz Aytmatovun yaradıcılığı 2006-cı ildə yazılmış «Əbədi gəlin və ya dağlar çökəndə» romanı ilə başa çatır. Bu, təkcə görkəmli yazıçının vəfatından qabaq yazdığı sonuncu roman mənasında deyil, bütün yaradıcılıq yolu boyu onu düşündürən problemlərin ümumiləşmiş bədii ifadəsi masştabında Çingiz Aytmatov dühasını tamamlayan əsər kimi mühüm əhəmiyyət kəsb edir. «Əbədi gəlin və ya dağlar çökəndə» romanı Çingiz Aytmatovun böyük sənət dünyasındakı əbədilik möhürüdür. Bu, Çingiz Aytmatovun «Kassandra damğası» romanında bəşəriyyətə etdiyi xəbərdarlıqdan sonra dünyanın gəlib çatacağı son dayanacağı təqdim edən möhtəşəm yekundur. Bu, Çingiz Aytmatovun simasında dünya ədəbiyyatının son yüz illik epoxasının çoxcildlik külliyyatında əks etdirilmiş qlobal ideyaların kuliminasiya nöqtəsidir.

«Əbədi gəlin və ya dağlar çökəndə» romanı Çingiz Aytmatovun əbədiyyət manifesti, dünya ədəbiyyatının isə bir daha bəşəriyyəti xəbərdar edən «Kassandra damğası»dır.

Göründüyü kimi, Çingiz Aytmatovun əsərləri, ideyaları və obrazları ilə müasir dünya da, dünya ədəbiyyatı da zənginləşmiş və yeniləşmişdir. Dəyişilməkdə olan dünyanın yeniləşmə proseslərinin çox mükəmməl ədəbiyyatını Çingiz Aytmatov yaratmışdır. Geniş mənada bütöv bir sistem halında Çingiz Aytmatovun əsərlərinin hamısı bir yerdə son yüzilliyin ən möhtəşəm epopeyasıdır. Bütövlükdə bəşəriyyət, xüsusən də, qırğız xalqı həmin çoxcildlik və dərin mənalara malik Çingiznamədə özünün dünənini tapdığı kimi, bu gününü





də güzgüdə olduğu kimi görə, sabahına gedən yolları da müəyyən edə bilər. Qırğızıstanla ərazi etibarilə Qazaxıstanı qovuşduran və Orta Asiya ilə əlaqələndirən Talas vadisindən Yer kürəsinə baxan Çingiz Aytmatov XX əsrə gətirdiyi süjetlər, ideyalar və obrazlarla dünyada yeni ədəbiyyat təfəkkürü formalaşmışdır. Dünya ədəbiyyatının fonunda möhtəşəm ədibin əsərləri əzəmətli bir abidənin pyedestalı, bu əsərlərin müəllifi olan qüdrətli yazıçı Çingiz Aytmatov isə onun heykəlidir. Bu möhtəşəm ədəbiyyat abidəsinin baş memarı da Çingiz Aytmatovdur.

– 0 –

Böyük söz ustadı Çingiz Aytmatov qırğız xalqının dünyaya bəxş etdiyi qüdrətli yazıçıdır. “Manas” kimi möhtəşəm eposa malik olan qırğız xalqı Çingiz Aytmatovun yaradıcılığı ilə bənzərsiz, yeni bir ədəbiyyat hadisəsi meydana çıxarmışdır. Çingiz Aytmatovun əsərləri geniş coğrafiyaya yayılmış türk xalqlarının ortaq taleyinin uğurlu təqdimatıdır. Kiçik qırğız aulundan günəş kimi dünyaya parlayan böyük ədəbiyyat günəşi olan Çingiz Aytmatov zəngin yaradıcılığı və milli ədəbiyyatın möhtəşəm təqdimatı ilə yanaşı, dünya ədəbiyyatında da yeni bir zirvə yaratmışdır.

YUNESCO-nun statistikasına əsasən Çingiz Aytmatovun əsərləri 170-dən çox dilə tərcümə olunmuş və yüz milyonlarla tirajla nəşr edilmişdir. Bu rəsmi statistika yazıçının dünya ədəbiyyatındakı mövqeyini ifadə edən və onun ən nəhəng klassiklərlə eyni yüksək səviyyəni təmsil etdiyini göstərən ciddi faktdır.

Görkəmli yazıçı Çingiz Aytmatovun adı və əsərləri Azərbaycanda da məşhurdur. Azərbaycan Çingiz Aytmatovun əsərlərində əks etdirdiyi ideyaların, tarixi-mənəvi proseslərin tale ortağıdır. Dünya ədəbi-ictimai fikrinin qüdrətli nümayəndəsi, qırğız ədəbiyyatının görkəmli klassiki Çingiz Aytmatovun əsərləri Azərbaycanda ana dilində yazılmış bədii ədəbiyyatın ən qiymətli nümunələri səviyyəsində oxunur. Çingiz Aytmatovun, demək olar ki, əksər əsərləri Azərbaycan xalqının qiymətli mənəvi sərvətinə çevrilmişdir. Görkəmli yazıçının ölməz əsərləri hələ keçən əsrin altmışıncı illərindən etibarən Azərbaycan dilinə tərcümə olunmuş və elmi-ədəbi mühitdə böyük maraqla qarşılanmış, ümumxalq məhəbbəti qazanmışdır. Çin-

giz Aytmatovun "Cəmilə" (1961) və "Köşək gözü" (1963) povestləri (tərcüməçi Qılman Musayev), "Qırmızı yaylıqlı qovağım mənim" (1965) povesti,"Gün var əsrə bərabər" (1985) romanı (İshaq İbrahimov), "İlk müəllim" (1965), "Ana tarla" (1966) və "Ağ gəmi" (1980) povestləri (Cəmil Əlibəyov), "Dəniz kənarıyla qaçan alabaş" povesti (Xeyrulla Əliyev, 1979), "Erkən gələn durnalar" (1990) povesti (Vilayət Rüstəmzadə), "Qiyamət"romanı (Vaqif Əlixanlı, 1990),"Çingiz xanın ağ buludu" povesti (Məti Osmanoğlu, 1992), Çingiz Aytmatovun hekayələri: "Oğulla görüş", "Köçəri quşların göz yaşları", "Balaca əsgər", "Dəhnəçi", "Qırmızı alma", "Buynuzlu ana maral", "Manqurt əfsanəsi", "Öldürək-öldürməyək" (İbrahim İlyaslı, 2014), "Kassandra damğası" romanı (Nərgiz Cabbarlı, 2018) Azərbaycan oxucusunun yaddaşında və mütaliəsində xüsusi yer tutur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə Çingiz Aytmatovun "Seçilmiş əsərləri" kitab halında ölkəmizdə bir neçə dəfə işıq üzü görmüşdür.

Dünya şöhrətli görkəmli yazıçı Çingiz Aytmatovun həyatı və yaradıcılığı Azərbaycanda araşdırılıb öyrənilmişdir. Xalq şairi Bəxtiyar Vahabzadə, xalq yazıçısı Anar, xalq yazıçısı Elçin, AMEA-nın həqiqi üzvü Nizami Cəfərov, Sabir Rüstəmxanlı, İmamaverdi Əbilov, Şahmar Əkbərzadə, Hüseynbala Mirələmov, Vilayət Rüstəmzadə, Adil Cəmil, Arif Məmmədov, Nizami Tağısoy, Elnarə Akimova, Nərgiz Cabbarlı, Leyla Gərayzadə, Ülviyyə Hüseynova və bir çox digər ziyalılarımız dahi yazıçının həyatı və yaradıcılığı ilə bağlı tədqiqatlar aparmış, yaddaqalan məqalələr yazmışlar. Azərbaycanda Aytmatovşünaslıq elmi istiqaməti formalaşmışdır. Leyla Gərayzadə Çingiz Aytmatovun yaradıcılığına həsr olunmuş filologiya üzrə elmlər doktorluğu, Ülkər Hüseynova və Mehman Həsənov isə filologiya üzrə fəlsəfə doktoru dissertasiyaları yazıb uğurla müdafiə etmişlər.

Bakıda 2008-ci ildə keçirilmiş Çingiz Aytmatov həftəsi xalqlarımızın və ədəbiyyatlarımızın qardaşlığının, ölkəmizdə böyük sənətkara bəslənilən xüsusi ehtiramın daha bir hadisəsi olmuşdur. Vaxtilə xalq şairi Bəxtiyar Vahabzadənin Çingiz Aytmatovdan "qan qardaşı" kimi söz açması bütövlükdə Azərbaycan xalqının böyük yazıçıya bəslədiyi ümumxalq ehtiramını ifadə edir. Bəxtiyar Vahabzadə böyük qürurla yazırdı ki: "Aytmatov hər şeydən öncə, mənim qan qardaşımdır. O, qırğız torpağının əli qələm tutan Batır Manası olmaqla yanaşı, həm də bütün türk dünyasının üzünü ağ edən XX əsrin klassikidir... Aytmatov qələminin sehri, ecazı dünya ədəbiyyatına misilsiz incilər bəxş edib... Çingiz Aytmatov mənim üçün yaş həddinə sığmayan, əsərlərilə çoxdan əbədiyyətə qovuşan sənət cəngavəridir" [4, s.725].





Dəfələrlə ölkəmizdə olmuş Çingiz Aytmatov Azərbaycan xalqı və mədəniyyəti haqqında qiymətli fikirlər söyləmişdir. O, Azərbaycanın böyük demokrat yazıçısı Cəlil Məmmədquluzadənin yaradıcılığını yeni nəsrin mühüm hadisəsi kimi dəyərləndirmişdir. Çingiz Aytmatovun qüdrətli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin dünya ədəbiyyatındakı yeri və yaradıcılığındakı novatorluq barəsində 1967-ci ildə deyilmiş aşagıdakı fikirləri yazıçı təəssüratından çox, mütəfəkkir bir şəxsiyyətin dərin düşüncəsini aydın şəkildə ifadə edir: "Müasir dövrdə milli ədəbiyyatların, xüsusən də, bədii nəsrin inkişafında Cəlil Məmmədquluzadə yaradıcılığının əhəmiyyətini dəyərləndirməmək mümkün deyildir. O, türk xalqları ədəbiyyatında realist nəsr məktəbinin əsasını qoymuşdur. Böyük sənətkar həm də alovlu satirik, mükəmməl ruhlu yazıçı və sosioloq kimi də çıxış edir. O, bütün hallarda yeniləşməyə nail ola bilmişdir" [5].

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində bədii nəsr sahəsində görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin göstərdiyi hünəri keçən yüzilliyin ikinci yarısından sonra özünəməxsus cəsarət və uzaqgörənliklə böyük qırğız ədibi Çingiz Aytmatov nümayiş etdirmişdir. Nəticə etibarilə Molla Nəsrəddin təxəllüsü ilə böyük şöhrət qazanmış Cəlil Məmmədquluzadə və Manasın böyük oğlu olaraq qəbul edilmiş Çingiz Aytmatov dünyada yeni nəsrin böyük qurucuları kimi dərin iz qoymuşlar. Çingiz Aytmatov "Şərqin böyük sənətkarı" məqaləsində yazırdı: "O, müasir realist yazı üslubunun, müasir nəsr formalarının banilərindən biridir. Heyrətli yığcamlıq, sadəlik və qüvvət onun nəsrinin əsas xüsusiyyətlərindəndir. Bunu biz "Danabaş kəndinin əhvalatları" povestində, bir silsilə gözəl hekayələrində, xüsusən kamil formaya malik olan "Poçt qutusu", "Kişmiş oyunu" kimi hekayələrdə duyuruq. Bax, hekayəni bu cür yazarlar! Komediya, faciə və dram ünsürlərinin üzvi şəkildə birləşdiyi "Ölülər" pyesi nə qədər gözəl və cazibədardır" [6].

Çingiz Aytmatovun Azərbaycan yazıçılarından Mirzə Fətəli Axundzadə, Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Anar və başqalarının yaradıcılığına verdiyi yüksək qiymət Azərbaycan ədəbiyyatında gedən mühüm dəyişikliklərin fonunda yaranan böyük ədəbiyyatın obyektiv şəkildə dəyərləndirilməsi ilə yanaşı, həm də ədəbiyyatımızın geniş miqyasda təqdim olunmasına da xidmət etmişdir. Qüdrətli sənətkarın xalq şairi Bəxtiyar Vahabzadə, xalq yazıçısı Anar, Şahmar Əkbərzadə, Hidayət, Hüseynbala Mirələmov, Cəmil Əlibəyov və başqaları ilə dostluğu xalqlarımız arasındakı çoxəsrlik əlaqələrin yeni mərhələsini təşkil edir. Azərbaycanın xalq yazıçısı Anar çox haqlı olaraq yazır ki, Çingiz Aytmatovla "biz də qürur duyuruq". Türk xalqlarından hər biri Çingiz Aytmatovu öz xalqının doğma yazıçısı olaraq qəbul edir. Çingiz Aytmatov dünyada oxşar taleləri yaşayan, insan, zaman, cəmiyyət və gələcək haqqında eyni düşüncədə olan xalqların hamısının yazıçısıdır.

Son illərdə Azərbaycanda Çingiz Aytmatovun həyatı və yaradıcılığına elmi maraq daha da artmışdır. Azərbaycanda Çingiz Aytmatov yaradıcılığının yeni nəsil gənc tədqiqatçısı kimi Mehman Həsənov ölkəmizdə və xaricdə keçirilən elmi konfranslarda, simpoziumlarda qüdrətli sənətkarın həyatı və yaradıcılığına həsr edilmiş məruzələrlə çıxış etmişdir. Mehman Həsənovun Çingiz Aytmatovdan bəhs edən məqalələri Azərbaycandan başqa xarici ölkələrdə: Türkiyə, Rusiya, Qırğızıstan və Polşada çap olunmuşdur. Haqqında ölkəmizdə kifayət qədər, həm də dərin səmimiyyətlə yazılmış araşdırmaların və məqalələrin olmasına baxmayaraq, "Çingiz Aytmatov və Azərbaycan ədəbiyyatı" adlı sistemli elmi tədqiqatın müəllifi kimi Mehman Həsənov Aytmatovşünaslıqda yeni və əhəmiyyətli imzadır. Ümid edirəm ki, Mehman Həsənov böyük ədəbiyyatşünaslıqda da imza sahibi olmağı bacaracaqdır.

Elmi fəaliyyəti ilə birlikdə Mehman Həsənovun Çingiz Aytmatovun əsərlərindən etdiyi tərcümələr də dövri mətbuatda işıq üzü görmüşdür. Oxuculara təqdim olunan bu kitabda görkəmli yazıçının "Ağ yağış" hekayəsi və "Üz-üzə" povesti Mehman Həsənovun tərcüməsində təqdim olunmuşdur.

"Üz-üzə" povestini Çingiz Aytmatov 1957-ci ildə hələ Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda oxuyarkən qələmə almışdır. Povest qırğızcadan tərcümədə əvvəlcə "Октябрь", daha sonra "Новый Мир" jurnalında rus dilində nəşr olunmuşdur. "Üz-üzə" povesti Çingiz Aytmatovun ədəbiyyatda özünəməxsus yaradıcılıq yolunu müəyyənləşdirməsində ciddi rol oynamışdır. Yazıçı əsərdə Səidə və İsmayıl obrazları ilə böyük ədəbiyyatda cəmiyyət-fərd probleminə dair fəlsəfi məsələ qaldırmışdır. O, eyni zamanda müharibədən qaçan insanın obrazını böyük cəsarətlə bədii ədəbiyyata gətirmiş, sosialist realizminin prinsipinə uyğun gəlmədiyi halda, Totoyun ailəsinin timsalında ilk dəfə olaraq müharibə insanının acınacaqlı faciəsini təsvir etmişdir. Povestin 1991-ci il nəşrinə yazdığı ön sözdə Çingiz Aytmatov bu əsərin qayəsində duran mətləblərdən aşağıdakı kimi bəhs etmişdir: "Mən oxuculara ictimai mövqeyin, xalqın mənəviyyatı, vətəndaşlıq vəzifəsinin mahiyyətini izah etməyə çalışdım. Eyni zamanda, mən onun (Totoyun – İ.H.) və ailəsinin faciəsinin timsalında insanlar, şəxsiyyət və vəzifə arasında həllolunmaz mübahisədən qaçmağa çalışanları təsvir etməyə səy göstərdim".

Çingiz Aytmatov "Üz-üzə" povestini həyatda baş vermiş real hadisələr əsasında qələmə almışdır. Həqiqətən də onun Qırğızıstanda böyüdüyü kənddə müharibədən qaçmış İsmayıl adlı şəxs olmuşdur. İnəyi oğurlanan Totoyun ailəsinin simasında yazıçı müharibə dövründə kəndli ailəsinin başına gələn hadisələri təsvir edib ümumiləşdirmişdir. Sonradan alman müxbir Fredrik Hitzerə uşaqlığı ilə bağlı verdiyi müsahibəsində də Çingiz Aytmatov əsərinin real qəhrəmanları haqqında bir daha söz açmışdır. Povestin qəhrəmanlarını yaxından tanıması böyük yazıçıya insan mənəviyyatını daha dərindən, incəliklərinə qədər təqdim etməyə şərait yaratmışdır.

Bütövlükdə, Çingiz Aytmatovun əsərləri insan mənəviyyatının böyük ədəbiyyatıdır. Çingiz Aytmatovun kəşf etdiyi insan tipi kiçik adamın böyük ədəbiyyatdakı yerinin və mövqeyinin ucalığını əks etdirir. Dünya şöhrətli yazıçı Çingiz Aytmatovun ölməz əsərləri müasir dünyanın ibrətamiz insanlıq dərsləridir.

Çingiz Aytmatovun əsərlərinin Azərbaycan dilinə tərcüməsi və nəşr olunması XX əsrin altmışıncı illərindən etibarən görkəmli ziyalılarımız tərəfindən şərəfli bir missiya olaraq yüksək səviyyədə yerinə yetirilmişdir. Cavan və istedadlı tədqiqatçı Mehman Həsənovun tərcümə etdiyi və Nizami adına Ədəbiyyat İnstitutunun nəşr etdiriyi bu kitabı həmin böyük ənənənin müasir mərhələdəki uğurlu dava-

mı hesab etmək olar. Bu kitab Mehman Həsənovun ustad yazıçı Çingiz Aytmatovun yaradıcılığına dərindən bələdliyindən və olunmuş bir vurğunluğun əməli ifadəsidir. Bu kitabla gənc tədqiqatçı Mehman Həsənov Çingiz Aytmatovun layiqli və zəhmətkeş tədqiqatçısı olduğu kimi, həm də böyük sənətkarı daha dərindən hiss edən tərcüməçilərindən biri olduğunu nəzərə çarpdırır. Mehman Həsənovun simasında Çingiz Aytmatovdan bəhs edənlərin sırasında tədqiqatçılıqla tərcüməçiliyi vəhdətdə ifadə edən fərqli və əhəmiyyətli bir yaradıcı baxış meydana çıxır. Bu, Mehman Həsənovun yekun elmi qavrayışı ilə yanaşı, həm də özünəməxsus bədii düşüncəyə malik olduğunu göstərir. Bütövlükdə, Çingiz Aytmatov kimi qüdrətli sənətkara həsr olunan, diqqəti cəlb edən elmi araşdırmaları və bu tərcümələri ilə Mehman Həsənov müstəqil Azərbaycanın yeni nəsil yaradıcı elmi gəncliyinin zəhmətkeş və istedadlı nümayəndəsi olduğunu ifadə edir.

– 0 –

Azərbaycanda Çingiz Aytmatov sənətinə dövlət səviyyəsində də yüksək qiymət verilmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasətdəki yeri və xalqına xidmətləri haqqında Çingiz Aytmatovun aşağıdakı fikirləri keşməkeşli epoxanın fonunda qüdrətli bir şəxsiyyət barəsində roman səviyyəsində ifadə olunan dərinmənalı ümumiləşdirmələr kimi səslənir. "Heydər Əliyev həqiqətən də, tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü MDB məkanında, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur.

Heydər Əliyev və onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti – müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir!" [7]





Eyni zamanda, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev də böyük yazıçı və ictimai xadim Çingiz Aytmatovun şəxsiyyətinə və xidmətlərinə yüksək qiymət vermişdir: "Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün türk dünyasının fəxridir" [1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci ildə dünya şöhrətli yazıçı Çingiz Aytmatovu "Dostluq" ordeni ilə təltif etməsi bütövlükdə bu böyük söz ustadına, onun ölməz sənətinə Azərbaycanda verilmiş yüksək qiymətlə yanaşı, həm də bəslənilən ümumxalq ehtiramını əyani şəkildə ifadə edir. Prezident İlham Əliyevin 25 fevral 2008-ci il tarixdə Bakıda "Dostluq" ordeninin təqdimetmə mərasimindəki aşağıdakı fikirləri Çingiz Aytmatovun Azərbaycana münasibətinin dərin mahiyyətini aydın surətdə mənalandırır: "Siz həmişə, bütün dövrlərdə Azərbaycanın dostu olmuşsunuz. Bu, sovet dövründə də belə olub, ...müstəqillik dövründə də... Çətin anlarda siz həmişə ədalətin, sülhün, əməkdaşlığın tərəfdarı kimi öz qətiyyətli sözünüzü demisiniz" [8].

Azərbaycan teatrları Çingiz Aytmatovun irsinə müraciət etmişlər. Böyük ədibin görkəmli qazax yazıçısı Muxtar Şaxanovla birlikdə yazdığı əsərlər də Azərbaycan teatr səhnəsində nümayiş etdirilmişdir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında 2013-cü ildə Çingiz Aytmatovun "Əsrə bərabər gün" romanı əsasında hazırlanmış "Manqurt" tamaşasının səhnəyə çıxarılması ölkəmizin mədəni həyatında əlamətdar hadisə olmaqla bərabər, həm də milli-mənəvi özünüdərk proseslərinin daha da dərinləşməsində böyük ədibin qiymətli irsindən müxtəlif formalarda istifadə ənənəsinin davam etdirilməsinə nümunədir.

Çingiz Aytmatovun böyük idealları və ölməz əsərləri yeni dünyanın inkişafına, ölkələrimiz və xalqlarımız arasındakı dərin bağlılıqların daha da möhkəmləndirilməsinə şərəflə xidmət edir. Planetimizdə yeni dünya təfəkkürünün formalaşmasında mühüm rolu olan Çingiz Aytmatovun ölməz əsərləri və idealları həmişə müasir cəmiyyətin və insanlığın yollarına gur işıq salır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dünya şöhrətli yazıçı, görkəmli ictimai xadim Çingiz Aytmatova təbrik məktubu. Bakı, 1998, 6 dekabr. http://lib.aliyev-heritage.org/az/5753280.html
2. Prezident İlham Əliyev məşhur yazıçı Çingiz Aytmatovu qəbul etmişdir. http://archive.president.az/articles.php?item_id=20080226095435110&sec_id=10
3. Ауэзов Мухтар. Путь добрый. "Литературная газета", 1958, 23 октябрь, №7.
4. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. On iki cilddə, XII cild. Bakı, "Elm", 2009.
5. Aytmatov Çingiz. Müdrik söz ustası. "Ədəbiyyat və İncəsənət" qəzeti, 1967, 4 iyun.
6. Aytmatov Çingiz. Şərqin Böyük sənətkarı. "Ədəbiyyat və İncəsənət" qəzeti, 1967, 31 iyun.
7. Dünya Heydər Əliyev haqqında, Çingiz Aytmatov, Qırğızıstan xalq yazıçısı. http://www.heydaraliyevfoundation.org/az/content/index/84/D%C3%BCnya_Heyd%C9%99rC6%8Fliyev_haqq%C4%B1nda
8. Çingiz Aytmatovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, 2008, 25 fevral. http://archive.president.az/articles.php?item_id=20080225062601218&sec_id=30
9. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. On iki cilddə, XI cild. Bakı, "Elm", 2009.
10. Ramazan Korkmaz. Aytmatov anlatılarında biçimlendirici etkinlik; emek ve empati. "Ədəbi əlaqələr" jurnalının xüsusi buraxılışı, 2018, Bakı, "Elm və təhsil".
11. Çingiz Aytmatov – türk ruhunun qələbəsi. (tərtibbçi, redaktor və ön söz: fil.e.d. Elnarə Akimova, elmi redaktor: akademik İsa Həbibbəyli). Bakı, "Nağıl Evi", 2013, 284 s.






**Isa Habibbayli**

## CHINGIZ AYTMATOV: EVERLASTING PHENOMENON OF THE WORLD LITERATURE

### SUMMARY

The main lines of Chingiz Aitmatov's Asian thoughtare reflectedin the deep life philosophy formed based on Kyrgyz people's destiny and spiritual world. Giving life to the spirit of all realities and own peculiarities of Kyrgyz peoples and steppes in the great literature space, he created the generalized image of the Central Asian geography. The article examines the phenomenon of Chingiz Aytmatov and his relations with Azerbaijan.

**Иса Габиббейли**

## ЧИНГИЗ АЙТМАТОВ: НАВЕЧНО ФЕНОМЕН МИРОВОЙ ЛИТЕРАТУРЫ

### РЕЗЮМЕ

Формирование глубокой жизненной философии и обобщений перекликаются у Чингиза Айтматова с судьбой и духовным миром киргизского народа с главными присущими чертами азиатского мышления. С правдивой реальностью и своеобразием олицетворяя в мировой литературе киргизский край, его раздолья, он создал обобщающий образ географии Средней Азии. В статье анализирован феномен Чингиза Айтматова и связи выдающегося писателя с Азербайджаном.